# Ayaz Arabaçının "vətəndaşları"



Pərvanə Bayramqızı

**(əvvəli ötən sayımızda)**

**Qırx dörd günlük müharibədə Ayaz Arabaçı sözüylə, misrasıyla gah döyüşdü, gah da ruh verdi. Onun şeirləri şairlik etmək xatirinə yazılmır. Hansı səbəbdən yazıldığını şeirlərindən xəbərdar olanlar bilir. Müharibə boyunca bir yandan əsgərə dayaq, o biri yandan da ədəbiyyatın əsgəri oldu. Hətta görüşlərinə də getdi. Düşmənin güllə yağdırdığı Azərbaycan ordusuna Ayaz Arabaçı şeiriylə məhəbbət yağdırdı.**

*Qolumuzun qüvvəti, dizimizin dirənci,*
*Kişiliyə, qeyrətə, namusa məhvər ordu.*
*Ümidləri günəştək qar altından oyadan,*
*Bir qom bənövşə kimi təzə ordu, tər ordu..*

*Gördüm ilk savaşını barmağımı dişlədim..*
*Dalbadal qazandığın zəfərə vərdişlədim,*
*Səni öyməkdən ötrü hansı sözü işlədim,*
*Hansı sözü işlədim, igid ordu, ər ordu?..*

"Dalbadal qazandığın zəfərə vərdişlədim" misrası uzun illər tamarzı qaldığımız qələbə sorağına olan yanğını əks etdirir. Cəbrayılın işğaldan azad edilməsi ilə başlayan qələbədən ruhlanıb hər gün yeni rayonun azadlığını gözlədik. Amma bu məqamı bircə Ayaz Arabaçı şeirə çevirdi.

*Sənə qucaq açıb, get, Şuşa adlı pirimiz..*
*Sonuncu pəncəsini qolaylayır şirimiz..*
*Bir ananın döşündən əmmişik hər birimiz,*
*Bu gün bu torpaqdakı hamı, bir nəfər ordu.*

"Hamı bir nəfər oldu". Bəli! Bu misra bugünkü vəziyyətimizi tam ifadə edir.

Mən də bu günlər baş verənləri həmrəylik kimi qiymətləndirirəm.

*Ürəyim gedən yerə həmişə tək getmişəm..*
*Nə səndən qırıq qalıb, nə sənə şəkk etmişəm,*
*Adını ürəyimin başına həkk etmişəm,*
*Sən bir qalib ordusan, sən bir müzəffər ordu.*

*Can qurban etməzmiyəm, hayqırtına-səsinə..*
*Səsimi duydurmusan dünyanın hər kəsinə,*
*Hamının gözü çıxıb heyrətdən kəlləsinə,*
*Misilsizdi çaldığın bu böyük zəfər, ordu!*

*Gör necə vüqarlısan zirvələrin qaşında,*
*Hər oğlu bir Babəkim, dəhilqəsi başında..*
*Tanrı özü dayaqdı sənə haqq savaşında,*
*Səni yenə bilərmi şeytan ordu, şər ordu?*

*Sənin belə hirsini, qeyzini gözləmirdim,*
*Dronların səmada feyzini gözləmirdim..*
*Açığı mən bu qədər tezini gözləmirdim..*
*Göstərdin necə olur yağıya məşhər, ordu..*

*Sən bu gün hər nəzmdə, sən bu gün hər nəsrdə,*
*Qalmaz daha bir arzum, qalmaz daha kəsrdə*
*Bir onu bilirəm ki, bu möhtəşəm əsrdə*
*Sənə bənzəmək istər cəsarətdə hər ordu.*

Yazmışdım ki, əziz ədəbiyyat adamları Vətən haqqında ən gözəl əsəri Azərbaycan əsgəri yazır, bizə qalır əsgərdən yazmaq. Ayaz Arabaçı bu işin öhdəsindən çox gözəl gəldi.

Bayrağa "anam örtən yun şal" demişəm. Bayraq deyəndə birinci Natiq Qasımov yada düşür. Bu yolu birinci o başlamışdı. Qardaşları da onun yolunu getdilər. O bayrağı şair belə vəsf edir:

*Gör necə də vüqarla başım üstə durmusan,*
*Yenilməz bir ulusa, yurda tən, uca bayraq.*
*Bəs eləyir rəsminə bircə qızılı misra,*
*Bu torpaq uca bayraq, bu vətən uca bayraq..*

*Əbədi dalğalanmaq həvəsini duyuram,*
*Ürəyini oxuyur və səsini duyuram,*
*Nəbzini dinləyirəm, nəfəsini duyuram,*
*Məni mən eyləyənsən, məni mən, uca bayraq..*

*O sənin şəhid oğlun, bu sənin şəhid bacın,*
*Mənim sinəmə gəlsin, nə ki var, ağrın-acın,*
*Dalğalanır Murovun yelində qıvrım saçın,*
*Ətəyi coşqun dəniz, başı çən, uca bayraq.*

*O zəfərdən Şuşaya, Laçına da dilərsən,*
*Kəlbəcərin, Ağdamın acısını silərsən,*
*Kefin harda istəsə dalğalana bilərsən,*
*Qazanmısan bu haqqı, sən ey, sən, uca bayraq..*

*Qoruyub yaşatmışıq səni qan bahasına,*
*Min-min oğul, min-min ər, min-min can bahasına,*
*Daha nə yazım axı, nə yazım dahasına,*
*Bayraq deyirəm sənə, bayraq, ən uca bayraq!*

Bu xalqın mənfi cəhətləri Vətən sevgisinə bağışlanılmalıdır. Qarabağ savaşı bizə çox şeyi sübut etdi. Şair də belə düşünür:

***"Bəlkə də, gərəkmiş bu savaş bizə,***
***Hamı bir-biriylə canhacan olsun".***

O biri bəndləri yazmaya bilmirəm. Hamısı gerçəkdir.

***İgiddən-igidik, ərdən-ərik ki..***
***Biz bu haqq işində zəfərbərik ki!!!***
***Onunçün bu qədər səfərbərik ki,***
***Sonu bu zülmətin qızıl dan olsun..***

***Heç kim üzülməsin, qəm anı deyil,***
***Könlümüz mərsiyə kamanı deyil,***
***Göyərçin uçurtmaq zamanı deyil,***
***Bu gün gərəkdi ki, qana-qan olsun!***



***İtirmə, ey əsgər, qızıl vaxtını,***
***Düşmənin başına çevir taxtını,***
***Dağıt tifaqını, vur paytaxtını,***
***Bərdənin qisası Yerevan olsun!***

Qələbə üçün nə qədər sevinsək də, ruhumuz yüksəlsə də, özümüzü toxtasaq da itkilərimizin ağrısından yaranan göynəyimizi gizlədə bilmərik. Qələbə-şəhid gecə ilə gündüz kimi bir-birinin tamamı və davamıdır. Amma şair şəhid şeirləri yaza bilmədiyini elə canlı ifadə edir ki, o məqamın özünün də necə ağır olduğunu duyuruq.

*Özümü əlli cür ağıya vurub,*
*Özümü əlli cür şerə çırpıram.*
*Gündə neçə dəfə stoldan durub,*
*Kağızı qələmi yerə çırpıram,*
*Şəhid şeirləri yaza bilmirəm.*

*Əsgər üçün daha bir oxşama:*
*Sən bir aslan yavrususan bu yaşda,*
*Yazdım getdi ər adını ta başda,*
*Elə kəs ki, nəfəsini savaşda,*
*Qoy qalmasın yağılardan heç bir ün,*
*Gün bu gündü, gün bu gündü, gün bu gün.*

Təkrirləri gözəl, ürəyəyatımlı, ruh oxşayandır.

*Qaytar mənə tariximi, yaşımı,*
*Ocağımı, torpağımı, daşımı,*
*Sənə görə dik tuturam başımı,*
*Əskilməsin qoy başından bir tükün,*
*Gün bu gündü, gün bu gündü, gün bu gün..*

*Perikdirib quzğunları ləngərin,*
*Zəfər qoxur dadlı-duzlu səngərin,*
*Basılmazdı beşulduzlu səngərin,*
*Ellər sənə arxalanıb çün bu gün,*
*Gün bu gündü, gün bu gündü, gün bu gün.*

*Vüqarında min gülüzlü səhər var,*
*Murovdağdan Dəlidağa səfər var,*
*İrəlidə qələbə var, zəfər var,*
*Xatirəyə qovuşubdu, dün bu gün..*
*Gün bu gündü, gün bu gündü, gün bu gün.*

Bəli! Axır ki irəlidəki o zəfəri qazandıq. Yurdumuzu işğaldan azad etdik.

*Otuz ildi inildədik bu aha,*
*Sən bilirsən nə ucuzdu, nə baha,*
*Heç bir vəchlə hesab qoyma sabaha,*
*Elə bu gün çürüt getsin büsbütün,*
*Gün bu gündü, gün bu gündü, gün bu gün..*

*Yürü, durma hər addımı zəlzələ,*
*Qaytar məni, ilkinliyə,əzələ,*
*Xəritəmə bir əl gəzdir təzələ,*
*Dərd əlində hirs alovdu can tütün,*
*Gün bu gündü,gün bu gündü, gün bu gün..*

*Səndən gələn hər bir zəngi öpürəm,*
*Sinəndəki o tüfəngi öpürəm,*
*Bayrağında hər üç rəngi öpürəm,*
*Var, dövlətin, var,qüdrətin, var, gücün.*
*Gün bu gündü, gün bu gündü, gün bu gün..*

*Zəfərini gözlərimə təpirəm,*
*Bir ümmansan dalğalanan, köpürən...*
*Tətik sıxan barmağından öpürəm,*
*Azərbaycan əsgəri..*

*Dəyişmisən səmalarda rəngi sən,*
*Həmin günü məhv olaram, səngisən..*
*Sona qədər udmalısan cəngi, sən,*
*Azərbaycan əsgəri..*

*Məlul qoyma könlü gülmüş bu şadı,*
*Hər zəfərin, hər qələbən nuşadı,*
*Üç həmləyə, beş həmləyə Şuşadı,*
*Azərbaycan əsgəri..*

*Uca sözdən, uca addan gəlirəm,*
*Silahlanıb üstdən-altdan gəlirəm,*
*Keçdim hərbi qeydiyyatdan, gəlirəm,*
*Azərbaycan əsgəri..*

Onun şeirlərində vətən mövzusu əbədidir. Avtomata qoyulan gülləyə bənzər o şeirlər ruhumuzda donacaq, ədəbiyyatda qalacaq. Tarixdə olduğu kimi yenə də sözlə qılınc qoşa döyüşdü.

Bərdədə böyüyən şair Ruslan Dostəlinin neçə il əvvəl yazdığı "Oxucum, bilmirəm sən haralısan, mənim şeirlərim Qarabağlıdır" misrasının gerçəyə çevrildiyi məqam Qarabağı görməyən gənclərin onun uğrunda canından keçməkləri oldu.

Bu savaş bir daha göstərdi ki, "haralısan?" anlayışını unutmalıyıq. Hamımız Qarabağlı, hamımız Gəncəli, hamımız Mingəçevirliyik. Düşmən bizi bölgəyə ayırmadan vurur. Ayaz Arabaçının Gədəbəydə doğulması onun Ağdamı, Kəlbəcəri sevməyinə niyə mane olsun ki?

***"Sevincindən partlamasa yaxşıdı,***
***Ürəyimin başındakı Kəlbəcər."***

deyə Kəlbəcərin qayıdışından dirçələn şair üçün

***Qovğalarda ağarmışqara başın mübarək!***
***Sənin yeni həyatın, yeni yaşın mübarək!***
***Küləklərin, çovğunun qarlı qışın mübarək!***
***Düşmənin sinəsini***
***44 günə şumlayan, qanlı xışın mübarək!***
***Vüsalıyla həsrəti bir-birinə qarışmış,***
***çölün-dışın mübarək!***
***Mübarəkdi, Ağdamım,***
***Qayıdışın mübarək!***

- deyib qarşıladığı Ağdamın da, Laçının da ağrısıyla sevinci eynidir. Bölgə-bölgə cana gələn Qarabağın işğaldan azad edilməsi ilə əzabdan xilas olan şair:

***"Gözü aydın olsun xəritəmizin,***
***Bitdi ey, Qarabağ töhməti bitdi!"***

deyə qürurlanır.

Bu misralar hamımızın gözaydınlığımız olsun. Arzu edirəm ki, şair bir də müharibə mövzusunda yazmalı olmasın. Şəhid şeirləri yazmamaq üçün özüylə mübarizə aparmağın acısını yaşamasın!